**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**ALİ ATTESTASİYA KOMİSSİYASI RƏYASƏT HEYƏTİNİN**
**22 dekabr 2023-cü il tarixli**

# QƏRARI

Azərbaycan Respublikasında yeni növ koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə 24 mart 2020-ci il tarixindən ölkə ərazisində elan edilmiş xüsusi karantin rejimi ilə tətbiq olunmuş bəzi məhdudiyyətlər istisna olmaqla digər iş, xidmət sahələrində və istiqamətlərdə fəaliyyətə icazə verildiyini, elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin tam iş qrafiki ilə fəaliyyət göstərdiyini, habelə 11 iyun 2019-cu il tarixinə qədər verilmiş fəlsəfə doktoru imtahanlarının nəticələrinin dissertasiyanın ilkin müzakirəsinədək 6 (altı) il, həmin tarixdən sonra verilmiş fəlsəfə doktoru imtahanlarının nəticələrinin dissertasiyanın ilkin müzakirəsinədək 5 (beş) il müddətində etibarlı sayıldığını nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyəti **qərara alır:**

1. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin “Elmi dərəcələr və elmi adlar verilməsi ilə bağlı müddətlərin xüsusi karantin rejiminin qüvvədə olma müddəti qədər uzadılması” haqqında 25 iyun 2020-ci il tarixli qərarı 1 yanvar 2024-cü il tarixindən qüvvədən düşmüş hesab edilsin.

2. Fəlsəfə doktoru imtahanlarının nəticələrinin dissertasiyanın ilkin müzakirəsinədək etibarlılıq müddətləri aşağıdakı qaydada nəzərə alınsın:

2.1. xüsusi karantin rejiminin elan edildiyi 24 mart 2020-ci il tarixində fəlsəfə doktoru imtahanlarının nəticələrinin etibarlılıq müddətinin bitməsinə 1 (bir) ildən çox vaxt qalmış iddiaçılara münasibətdə imtahanların etibarlılıq müddətinin həmin tarixdən sonrakı qalan hissəsi 1 yanvar 2024-cü il tarixindən hesablansın;

2.2. xüsusi karantin rejiminin elan edildiyi 24 mart 2020-ci il tarixində fəlsəfə doktoru imtahanlarının nəticələrinin etibarlılıq müddətinin bitməsinə 1 (bir) ildən az vaxt qalmış iddiaçılara münasibətdə nəticələr 1 yanvar 2024-cü il tarixindən 1 (bir) il ərzində etibarlı sayılsın.